*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 32-36* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.32*

# Gülxani Pənahın poeziyası

**Bahar Məmmədova (Bərdəli )**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: baharmemmed288@gmail.com

**Annotasiya.** Özünəməxsus yaradıcılıq üslubu, dəstxəti, poetik dünyası olan Gülxani Pənah XX əsrin 80-ci illər ədəbi nəslinə məxsusdur. Onun yaradıcılığı janr, mövzu, ideya baxımından zəngindir. Filologiya elmləri doktoru Gülxani Pənahın poeziyası xüsusilə seçilir, fərqlənir. Şairin şeirlərinin əsas mövzusu: Vətən – onun təbiəti, Vətən – onun Qarabağ dərdi, Sevgi dünyası və fəlsəfi düşüncələrdən ibarətdir. Gülxani Pənahın indiyə kimi iyirmiyə yaxın poetik toplusu işıq üzü görüb. Onun Vətənin təbiətindən bəhs edən onlarca şeiri – “Kəlbəcər”, “Xəzər”, “Qobustan qayaları”, “Qar çiçəyi”, “Bənövşə”, “Şəlalə” və s. kimi şeirləri, onlarca bayatıları, həmçinin “Dünya Xocalıdan danışır”, “Məni çöndərmə”, “Siyasət bazarında” kimi poemaları bu qəbildəndir.
Gülxaninin şeirlərində Vətənin dağları, düzləri, çayları, hər gülü, çiçəyi təsvir və tərənnüm olunur, həmçinin Vətənin işğal altında qalmış Qarabağından söhbət açılır, həm Birinci Qarabağ, həm də İkinci Qarabağ müharibəsindən bəhs edilir. Şairin bu münasibətlə yazdığı “Qarabağ dərdi”, “Vətən adlı dinim var”, “Bütöv bir canıq, Azərbaycanıq” kimi şeir kitablarında bu tip şeirlər kifayət qədərdir. Bu şeirlərdə Vətən müharibəsində iştirak edən, həlak olan el igidləri təsvir və tərənnüm edilir.
**Açar sözlər:** Gülxani Pənah, şeir, Vətən, Qarabağ, təbiət, müharibə

**Məqalə tarixçəsi:** göndərilib – 07.05.2024; qəbul edilib – 24.05.2024

# The poetry of Gulkhani Panah

**Bahar Mammadova (Bardali)**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: baharmemmed288@gmail.com

**Abstract.** Gulkhani Panah, who has a unique creative style, calligraphy, and poetic world, belongs to the literary generation of the 80s of the 20th century. His creativity is rich in terms of genre, theme, and ideas. The poetry of Gulkhani Panah, doctor of philological sciences, stands out. The main theme of the poet's poems are: Motherland – its nature, Motherland – its Karabakh troubles, the world of love and philosophical thoughts. About twenty poetic collections of Gulkhani Panah have been published so far. Her dozens of poems about the nature of the Motherland are “Kalbajar”, “Khazar”, “Rocks of Gobustan”, “Snow Flower”, “Violet”, “Waterfall”, etc. Her poems, dozens of poems such as “The World Speaks of Khojaly”, “Don't Kill Me”, and “Political Market” are of this type.
The mountains, plains, rivers, every rose and flower of the Motherland are described and praised in Gulkhani's poems. There is also talk about the occupied Karabakh of the Motherland. Both the First Karabakh War and the Second Karabakh War are mentioned. There are enough poems of this type in the poetry books written by the poet on this occasion, such as “The Sorrow of Karabakh”, “I have a religion called Motherland”, “We are a whole soul, we are Azerbaijanis”. In these poems, the heroes who participated in the Patriotic War and died are described and glorified.

**Keywords:** Gulkhani Panah, poetry, Homeland, Karabakh, nature, war

**Article history:** received – 07.05.2024; accepted − 24.05.2024

## Giriş / *Introduction*

Zəngin ədəbi nümunələri olan Azərbaycan ədəbiyyatında qadın şairlərimiz də mühüm yer tutur. Məhsətidən, Xan qızı Natəvandan üzü bəri Mirvarid Dilbazi, Mədinə Gülgün, Hökumə Billuri kimi şairlərimiz Vətəni, onun mübarizəsini, azadlıq arzularını, bütövlüyünü hər zaman tərənnüm etmişlər. Bu gün də həmin şairlərin varislik ənənəsi qorunub saxlanılır və davam etməkdədir. Onların xələflərindən biri yazıçı, şair, filologiya elmlər doktoru Gülxani Pənah XX əsrin 80-ci illər ədəbi nəslinə mənsubdur. İlk şeirlərini orta məktəbdə oxuyarkən qələmə almışdır.

Gülxaninin yaradıcılığı, xüsusilə poeziyası janr, mövzu, ideya baxımından, kifayət qədər zəngin, dolğun və əhatəlidir. Şairin şeirlərinin mövzusuna nəzər saldıqda aydın olur ki, bu şeirlərdə birinci yerdə Vətənin tərənnümüdür. Gülxaninin poetik yaradıcılığı elə Vətən təbiətinin vəsfi ilə başlayır. Bu təsvir və tərənnümdə Vətənin təbii gözəlliyi ilə bərabər, onun bütöv obrazı da canlanır, təbiət hadisələrinə hissi-emosional baxışlarının təbiiliyi də diqqət çəkir. Onda təbiəti duymaq, ona bağlılıq, özünü təbiətin bir parçası sanmaq şairin poetik duyğularının zənginliyindən xəbər verir. Şairin müraciət etdiyi rəngarəng mövzularda bir bitkinlik, həzinlik, səmimilik, real həyat həqiqətləri özünü əks etdirir. Gülxani Pənah realist şairdir. Onun hər bir şeirində Vətənin real həyatı, mübarizəsi yaşayır. Hər bir şeirinin də öz taleyi, həyatı, xarakteri vardır.

## Əsas hissə / *Main Part*

Ana yurdun daşı da, torpağı da, dağı-düzü də Gülxaninin ilham mənbəyidir. Üzünü Vətənin dağlarına tutan şairin lirik qəhrəmanı deyir: “Lalədən, nərgizdən don geyib düzlər, Dağların yaxası xalı, xalçadır...” “Kəlbəcər” şeiri bu mənada daha çox xarakterikdir:

*Deyirlər İsveçrə Kəlbəcərə bənzəyir.*
*Tərtəri qarışıq, Həkərisi qarışıq...*
*Sıldırımlı dağları çox,*
*Qırçın qayaları çox,*
*Dərəsi çox, düzü çox.*
*Yazı az, qışı çox...*
*Havası, suyu məlhəm,*
*Azdır, ondan nə yazsa qələm...* [7, s.147]

Şair yaşıl ormanları, güllü-çiçəkli tarlaları, şaqraq suları, dağ sellərini, şəlalələri, çiçək bitirən qayaları, hər gülü, çiçəyi, ağacı, hər fəslin özünəməxsus gözəlliklərini ilhamla təsvir və tərənnüm edir. Məsələn, “Sarıcalıda qoşa palıd görmüşəm” şeiri bu mənada diqqətəlayiqdir. Onun lirik hissləri, duyumu imkan verir ki, hər gülə, çiçəyə, ağaca, daşa, qayaya, quşa, bulağa... həssaslıqla yanaşsın. Təbiətə, canlı-cansız bütün varlıqlara bu incə hisslərlə, həssaslıqla yanaşma duyğularının zənginliyidir ki, o, “Bənövşə”, “Birəbitdən”, “Çobanaldadan” kimi şeirlərini yaza bilib. Şeirin dili, ahəngi, ritmi, ifadələrin seçimi, mövzunun ideya zənginliyi, canlı təsviri şairin təbiətə həssas yanaşmasından xəbər verir.

Filologiya üzrə fəlsəfə doktoru Salatın Əhmədli “Tədqiqatçı ömrü” adlı monoqrafiyasında Gülxani Pənahın poeziyasından bəhs edərkən yazır: “Gülxani Pənahın yaradıcılığını, xüsusilə poeziyasının hansı qatını qaldırsan, orada Vətən sevgisi qırmızı xətt kimi keçir” [1, s.8].

Gülxaninin qəlbi, ruhu ilə təbiət arasında bir harmoniya vardır. Şair düşmən tapdağında qalan Vətənin bir parçasında yazın gəlişini özünəməxsus şəkildə təsvir edir. “Yaz gəlir” şeirində Sərhəd dirəyinin dibindən boylanan bənövşənin təsviri ürək dağlayır. Onsuz da boynubükük olan bənövşə bir az da torpağa sığınıb bu yurdun əsl sahiblərini gözləyir. Yazın gəlişinin yaratdığı sevinclə şairin yaratdığı mənzərə arasındakı təzadlar daxili əhvali-ruhiyyəni sarsıdır. Şeirdə əsir düşmüş Vətənin ortasında qurulan yalançı sərhəd dirəkləri, bu dirəklərin dibindən “torpağı çatladıb çıxıb” məlul-məlul baxan bənövşənin yaratdığı kövrək duyğular təsiredici

bir dillə verilir. Havasından, suyundan bahar nəfəsi duyulan torpağın düşmən əlində inləməsini şair bir daha xatırladıb yada salır. Burada Sərhəd dirəyinə olan kin, nifrət də gözdən qaçmır.

İnsanla qırılmaz bağlılığı olan təbiət insan duyğularının barometridir. Təbiətdən kənarda, ondan ayrılıqda varlıq yoxdur, eləcə də insan. İnsan öz hisslərini təbiətlə, onun varlığı ilə bölə bilir. Bütün şairlərin üz tutduğu təbiət Gülxani Pənahın da təsvir-tərənnüm obyektidir. Şairin bir çox təbiət şeirləri rəssam əsərini də xatırladır. Gördüyü, seyr etdiyi mənzərənin canlı tablosunu sözlə yaradan şair "Xısınlaşır yarpaqlar" şeirində təbiətin "dilini tapır", onları quru, cansız deyil, dili, sözü-söhbəti olan canlı varlıq kimi "dilləndirir". Qədim insanların ilk məskəni olmuş Qobustan qayaları şairin eyniadlı şeirində öz poetik təsvirini tapır:

*Qobustan qayaları,*
*Sirlər dünyası,*
*İnsanlığın ilk məskəni,*
*Pirlər dünyası...*
*...Tarixin qan yaddaşı...*
*...Min illərin arxasından*
*Boylanan həqiqət var*
*O daşların canında...*
*Qobustanda... Azərbaycanda...* [7, s.284]

Tarixdə dünya üzrə dördüncü, beşinci insan məskənləri hesab edilən Azərbaycanın Qobustan və Azıx mağaraları bu gün də qorunur. Şair haqlı olaraq yazır:

*Qobustanda, Azıxda*
*İnsanlığın ilk məskənləri.*
*Burdan yayılıb*
*Bəlkə yer üzünə insanlar...*
*Nə bilmək olar...* [ 7, s.284]

Gülxani Pənahın təbiətin gözəlliklərindən doğan lirik şeirlərindəki həyat eşqi, lirik tutum, məna dərinliyi, məzmun gözəlliyi müraciət etdiyi bütün mövzularda olduğu kimi, təbiətlə bağlı mövzularda da diqqəti çəkir.

"Gülxani Pənahın lirikasında Vətənə, yurda, torpağa bağlılıq əsasdır. Dağlarının, düzlərinin, könlünə fərəh gətirən gözəlliklərinin tərənnümçüsüdür... əsərlərindəki həyati lövhələr, canlı xarakterlər, təbiilik yaradıcılığının, fərdi bədii üslubunun səciyyəvi keyfiyyətləridir" [1, s.8].

Azərbaycanın təbii gözəlliklərindən biri də Xəzər dənizidir. Paytaxt Bakını ağuşuna alan dənizin təsvirini şair "Səngiyib" şeiri ilə əks etdirir:

*Xəzri yatıb səngiyib,*
*Ləpələr də təngiyib...*
*... Qabarıb çəkilir,*
*Nehrə kimi yellənir Xəzər...*
*Mavi Göylər, mavi Xəzər...* [ 7, s.285]

Şair haqlı olaraq ona "Sən elə Xəzərsən bizim üçün, Vətənimə yaraşıq, Bakıma can sirdaşı..", – deyir.

"Gözümün yaşıdır" şeirində Şair yenə üzünü dənizə tutur:

*Dəniz gözümün yaşıdır,*
*Yığılıb illər, əsrlər...*
*Torpağa hopa bilməyib,*
*Dərya olub,*
*Dəniz olub...* [7, s.293]

Şairin həmçinin "Kürə dəli dedim...", "Yuxuma", "Qoşa çinarım" və s. şeirləri Vətənin tərənnümündən ibarətdir. O, hər güldən, çaydan, çiçəkdən, böcəkdən yazanda mütləq Vətəndən də bəhs edir. Vətəni oxşayıb, vəsf edir. Çünki bu gözəlliklər Vətənin təbiətidir, havasıdır, suyudur.

Şairin bayatıları da Vətən deyir. Bu dörd misralıq poetik parçalarda şairin ürəyi Vətən üçün döyünür:

*...And yerim,*
*Yurd yerimdir and yerim!*
*Sevincim bol olduqca,*
*Uçmağa qanad yerim!* [7, s.331]

Gülxani Pənahın onlarca bayatısı var ki, Vətənin igid oğullarından, qəhrəman qızlarından bəhs edir. Tarixən Azərbaycan torpaqları dəfələrlə işğala məruz qalıb, yağı düşmənin əsirinə çevrilib, sərvətləri talan edilib, təbiəti də, insanları da məhv edilib. Lakin Zaman keçib və onu igid övladları bu həbsdən, əsirlikdən, düşmənlərdən azad edib. Şəhid olanlar Vətənin, xalqın qan yaddaşına yazılıb:

*... Odu bizdən*
*Ocağı, odu bizdən...*
*Vətən üçün can verən,*
*Şəhid var... odu bizdən.* [7, s.322]

Filologiya üzrə fəlsəfə doktoru, şair Firuzə Məmmədli Gülxaninin poeziyası haqqında yazır: "Gülxani Pənah bir şair kimi sadədir, səmi-

midir, duyumludur. Onun mövzuları çoxşaxəlidir. Şaxlı-budaqlı tut ağacını xatırladır. Məhsuldardır – şeirlərinin hər biri bir tam halında meyvəsinin bolluğundan başını aşağı sallamış budaqlara bənzəyir" [3, s.3]. Bu şeirlərə həm də Vətənin dərdi, ağrı-acısı yüklənib. Əsir düşmüş Qarabağın hər kəndi, şəhəri şairin şeirlərinin baş mövzusudur. Vətənpərvərlik duyğularının yüksək olduğu bu əsərlər poetik cəhətdən çox uğurludur. Şair "Qarabağ dərdi" şeir toplusunda "Qarabağ dərdi", "Gecə-gündüz bu dağları", "O yaradan", "Dururmu", "Milli ordumuz var", "Bir el qoyub..." və s. şeirlərində Qarabağ haqqında öz poetik düşüncələrini oxucuları ilə bölüşür:

*Dağ kələsi şiş qayadan baxırmı,*
*Zirvələrdə görən şimşək çaxırmı,*
*Tərtər yenə əvvəlkitək axırmı,*
*Dəliliyi, şıltaqlığı dururmu?* [5, s.93]

Şair burada otuz il düşmən tapdağında qalmış Kəlbəcərdən, onun şiş qayalarından və ordan axıb gələn Tərtər çayından bəhs edir.

27 sentyabr 2020-ci il – 10 noyabr 2020-ci il, yəni 44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan Ordusu Qarabağı erməni ordusundan, işğalından azad etdi. Bu Qələbə münasibətilə Gülxani Pənah "Bütöv bir canıq, Azərbaycanıq", "Vətən adlı dinim var" adlı şeir kitablarını çap etdirmişdir. Bu kitablarda şairin onlarca şeiri Qələbəyə həsr olunmuşdur. "Ali Baş Komandana", "Azərbaycan əsgəri", "Bir başqa göz yaşıdır", "Qələbə marşı" və s. şeirləri şairin sevincli anlarının əks-sədasıdır.

*Bircə qarış əsir torpaq qalmasın,*
*Düşmən yurdda bir də binə salmasın,*
*Kəs nəfəsin, burda nəfəs almasın,*
*Yıx başına o qurduğu səngəri!*
*Azərbaycan əsgəri!* [8, s.8]

Şairin bu Böyük Qələbənin qazanılmasında əsas qüvvə olan şəhidlər haqqında yazdığı şeirləri xüsusilə diqqəti çəkir:

*Hər damla qanından göyərir torpaq,*
*Hər damla qanından açılır yarpaq,*
*Qanından rəng alıb o uca BAYRAQ,*
*Dövlətə, bayrağa qurban şəhidlər!* [7, s.51]

G.Pənahın Birinci Qarabağ müharibəsində həlak olan oğuzlular haqqında yazdığı "Oğuz şəhidləri" kitabı da diqqətəlayiqdir.

Tənqidçi Tehran Əlişanoğlu yazır: "Tərənnüm, həyat, sevinc poeziyası yaratmaq kədər, qəm, ölüm mövzularında yazmaqdan həmişə çətin sayılmış... Yaşanmış sevincin, işığın, bəxtiyarlığın effektini ikiqat verməк, oxucularınla bölüşmək bu halda çətin də sayılmalıdır..." [2, s.285] Bu, bəlkə də kədərin, ağrı-acının çoxluğundandır ki, ondan yazmaq asanlaşıb?! Hər halda istənilən şairin qəmgin notlara köklənmiş şeirləri daha çoxdur. O cümlədən, Gülxani Pənahın poeziyasında yetərincə dərd-qəm yükü var. Şair Fikrət Sadıq G.Pənahın "Dədə Şəmşir harayı" kitabına yazdığı "Ön söz"də bunu bir daha təsdiqləyir: "Bu kitabda iki haray var: "Aşıq Şəmşir yaradıcılığı" bir haray – nəsr. "Dədə Şəmşir harayı" bir haray – nəzm. Bir haray, üstünə gəl, bir haray, iki haray olmaz, fəryad olar... Fəryad burada təsəllidir, təskinlikdir, həm də xəbərdarlıqdır. Bu fəryad yerdə qalmaz!" [9, s.3]. Səslənən bu fəryadlar Aşıq Şəmşir yurdunun ermənilər tərəfindən talanmasına işarələrdir.

*Növrağı dağıdıb pozana lənət,*
*Düzümü əyənə, yozana lənət,*
*Səfimə əl atıb pozana lənət...*
*Qarğışdan savayı nəyim qalıb ki...* [6, s.144]

Otuz il sonra, doğrudan da bu fəryadlar yerdə qalmadı! Qarabağ talançı, işğalçı düşməndən azad edildi.

Xalq şairi Söhrab Tahir Gülxani Pənahın "Bura Vətəndir" kitabına yazdığı "Ön söz"də deyir: "Xalqın çəkdiyi əzab-əziyyətə qarşı mübarizəyə qalxmağa, Ana Vətənin hər qarışını düşmən tapdağından azad etməyə çağıran şair erməni cinayətkarlarının murdar niyyətlərini ifşa etməklə bərabər, qoynunda yağıların at oynatdığı yaylaqları, dağları, məzarları, dağılan ruhların ah-fəqanlarını poetik boyalarla qələmə alır, gözü yollarda qalanların el-obalarına qayıtmaq eşqini, düşmənə nifrət hissimizi gücləndirir" [10, s.5].

Gülxani Pənahın sevgiyə, məhəbbətə aid şeirləri də kifayət qədərdir. Şairin "Nəcib duyğular" adı altında toplanan əsərlərində bir həzinlik, həsrət, səmimi duyğuların məcmusu birləşib.

Bu şeirlər şairin lirik qəhrəmanının sevgi yarpaqlarıdır. "Nə baxırsan", "Bircə səni itirməyim", "Kövrəlmişəm", "Qonaq gəl" kimi şeirlər şairin bu səpkidə yazdığı əsərləridir.

## Nəticə / *Conclusion*

Beləliklə, keçən əsrin 80-ci illərində ədəbiyyat camiyəsinə gələn Gülxani Pənahın yaradıcılığı çoxşaxəlidir. Ədəbiyyatşünas, yazıçı, şair Gülxani öz istedadı çərçivəsində bacardığı qədər qələmini müxtəlif mövzularda sınamışdır. Ən çox Vətən, onun təbiəti, insanları, igid oğulları haqqında poetik duyğularını önə çəkmişdir və istənilən əsərləri yaza bilmişdir. Bu mənada onun son dönəmlər çap etdirdiyi kitablarda toplanan şeirlər, xüsusilə Birinci və İkinci Qarabağ müharibəsinə həsr etdiyi şeir və poemalar oxucuları tərəfindən rəğbətlə qarşılanmışdır. Bu şeirlərdə düşmənə nifrət, Vətənə hörmət, rəğbət var. Vətənpərvərlik, insanpərvərlik, yurdsevərlik bu əsərlərin əsas qayəsini təşkil edir. Tarixi faktlar şairin bədii təfəkküründə cilalanaraq poetik şəkildə oxuculara ötürülür. Və bu əsərlər yaddaşlara təsiretmə, yaddaşlarda əbədiləşmə gücünə də malikdir.

## Ədəbiyyat / *References*

1. Əhmədli, Salatın. Tədqiqatçı ömrü. – Bakı: Elm və təhsil, 2021. – 468 s.
2. Əlişanlı, Tehran. Müstəqillik körpüsünü keçənlər. – Bakı: Elm və təhsil, 2015. – 452 s.
3. Məmmədli, Firuzə. Qadın-şair ürəyi. Gülxani Pənah. Qarabağ dərdi. – Bakı: Çinar-Çap, 2005.
4. Pənah, Gülxani. Bura Vətəndir. – Bakı: Azərnəşr, 2001. – 400 s.
5. Pənah, Gülxani. Qarabağ dərdi. – Bakı: Çinar-Çap, 2005. – 400 s.
6. Pənah, Gülxani. Dədə Şəmşir harayı. – Bakı: UntiPrint, 2007. – 320 s.
7. Pənah, Gülxani. Vətən adlı dinim var. – Bakı: Skye, 2021. – 698 s.
8. Pənah, Gülxani. Bütöv bir candır, Azərbaycandır. – Bakı: Skye, 2021. – 660 s.
9. Sadıq, Fikrət. Ön söz. Gülxani Pənah. Dədə Şəmşir harayı. – Bakı: UntiPrint, 2007.
10. Tahir, Söhrab. Ön söz. Gülxani Pənah. Bura Vətəndir. – Bakı: Azərnəşr, 2001.

## Поэзия Гюльхани Панах

**Бахар Мамедова (Бардали)**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: baharmemmed288@gmail.com

**Резюме.** Гюльхани Панах, обладающая уникальным творческим почерком, стилем и поэтическим миром, принадлежит к литературному поколению 80-х годов XX века. Её творчество богато по жанровому, тематическому и идейному плану. Особняком стоит поэзия доктора филологических наук Гюльхани Панах. Основная тема стихов поэта – Родина, её природа, её карабахские беды, мир любви и философских размышлений. К настоящему времени издано около двадцати поэтических сборников Гюльхани Панах. Десятки её стихотворений о природе Родины – «Кельбаджар», «Хазар», «Скалы Гобустана», «Снежный цветок», «Фиалка», «Водопад» и др., а также такие стихи, как «Мир говорит о Ходжалы», «Не убивай меня» и «Политический рынок», относятся к теме Родины. Горы, равнины, реки, каждая роза и цветок Родины описаны и воспеты в стихах Гюльхани, в которых также говорится об оккупированном родном Карабахе. Упоминаются как Первая карабахская война, так и Вторая карабахская война. В сборниках стихов, написанных поэт эссой по этому поводу, достаточно стихотворений такого типа, как «Печаль Карабаха», «У меня есть религия под названием Родина», «Мы – целая душа, мы – азербайджанцы». В этих стихотворениях описываются и прославляются герои, участвовавшие в Отечественной войне и погибшие.
**Ключевые слова:** Гюльхани Панах, поэзия, Родина, Карабах, природа, война